

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 aprel 2021-ci il №26 (2534) https://mod.gov.az Qiyməti 30 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir

***Vətən müharibəsində Azərbaycan Ordusunun, Azərbaycan əsgərinin cəsurluğu, fədakarlığı və rəşadəti ilə qazanılan tarixi Zəfər ölkəmizdə ümumxalq sevinci, kapitulyasiya aktına imza atan Ermənistanda dərin məyusluq və depressiya yaratdı. Dünyanın aparıcı ölkələrində hərbi mütəxəssislər, ekspertlər qoşunlarımızın cəbhədə nümayiş etdirdiyi ən modern silahlarına və döyüş texnikalarına diqqət yetirir, hərbi-taktiki yenilikləri incələyirlər. Onların əksər qismi haqlı olaraq belə qənaətə gəliblər ki, Azərbaycan 44 gün davam edən hərbi əməliyyatlar zamanı XXI yüzilliyə xas döyüş imkanları sərgiləyib.***



Aradan beş ay keçməsinə baxmayaraq, hələ də Qarabağ cəbhəsində baş verən bu və ya digər hadisələr geniş işıqlandırılır, təhlil obyektinə çevrilir. Hərbi analitiklər öz araşdırmalarında Silahlı Qüvvələrimizin ötən 20-25 il ərzində keçdiyi inkişaf yolunu təhlil edir, ordu quruculuğunun dövlət rəhbərliyi tərəfindən prioritet vəzifə kimi qarşıya qoyulduğunu vurğulayırlar. Ötən müddət ərzində öz arsenalını gücləndirmək üçün dünyanın bir çox ölkələrindən ölkəmizin ən müasir və yüksək dəqiqliyə malik silah nümunələri aldığını ekspertlər xüsusi vurğulayır, döyüş hazırlığı prosesində ordumuzun bu silahları və hərbi texnikanı bacarıqla mənimsədiyini, müxtəlif və müştərək təlimlər zamanı taktiki ustalıqlarını durmadan artırdığını dəlil kimi ortaya qoyurlar.

Hərbi mütəxəssislər 2016-cı ilin aprelində baş vermiş dördgünlük döyüşləri Vətən müharibəsində Azərbaycan Ordusunun Ermənistan üzərində çaldığı zəfərin təsadüfi olmadığına əsas arqument olaraq gətirirlər.

Beş il öncə bu günlərdə baş verən döyüşlər də məhz Ermənistan hərbi birləşmələrinin təxribatı nəticəsində baş vermişdi. Buna baxmayaraq ordumuzun bölmələri düşmənə layiqincə cavab vermiş, onu müxtəlif istiqamətlərdə təmas xəttindən xeyli arxaya atmışdılar.

2016-cı ilin aprelin ilk günlərində atəşkəs cəbhə xəttində vəziyyətin kəskinləşməsi nəticəsində pozuldu. Atəşkəs imzalandığı 24 il ərzində atışmalar baş versə də, gərginlik bu səviyyəyə çatmamışdı. Ermənistan silahlı birləşmələrinin martın sonlarında ordumuzun mövqelərinə, kənd və qəsəbələrimizə artilleriya silahlarından ağır zərbələr endirməsi cavabsız qala bilməzdi.

**(Ardı 3-cü səhifədə)**



Naxçıvan Qarnizonu Qoşunlarında komanda-qərargah təlimi keçirilib

**2-ci səhifədə**



Mina təhlükəsizliyinin təmin olunmasında peşəkarlıq əsas şərtdir

**4-cü səhifədə**



Döyüş hazırlığı Zəfərdən sonra da yüksək səviyyədə saxlanılır

**5-ci səhifədə**



Murov zirvəsində şəhidliyə ucalan xaçmazlı kəşfiyyatçı

**8-ci səhifədə**

# Naxçıvan Qarnizonu Qoşunlarında komanda-qərargah təlimi keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, "Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən birləşmələrdə komanda-qərargah təlimi keçirilib.*



Təlimin birinci mərhələsində qoşunların müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilməsi üçün birləşmə və hissələr "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonlarına çıxarılıb. Ərazidə qərargahlar tərəfindən müdafiə və hücum əməliyyatlarının planlaşdırılması hərbi qərar qəbuletmə prosedurlarına uyğun olaraq keçirilib.

Praktiki fəaliyyətlərə cəlb edilmiş tabor taktiki qrupunun bölmələri şərti düşmənin həmləsini dəf edərək onun canlı qüvvəsinə, zirehli texnikasına atəş zərbələri endirməklə hücum edən bölmələr üçün əlverişli şərait yaradıblar.

Təlimin sonuncu mərhələsi qəbul edilmiş qərarların, aparılmış hesabatların reallığının, bölmə komandirləri tərəfindən fəaliyyətlərin Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində kompüterlər üzərində oynanılması ilə keçirilib. Kompüterlər vasitəsilə bölmə komandirləri ərazinin relyefindən istifadə etməklə düşmənə yaxınlaşma, manevr bölmələrinin atəş təminatı və yaranmış taktiki şəraitdə çevik qərar qəbuletmə bacarıqlarını təkmilləşdiriblər.

Təlimin sonunda fəaliyyətlərin təhlili aparılıb, çatışmazlıqlar qeyd olunub və qarşıya qoyulmuş məqsədlərə nail olunduğu vurğulanıb.

# Naxçıvan Qarnizonu Qoşunlarında təşkil edilən kurslar başa çatıb

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Naxçıvan Qarnizonunda qadın hərbi qulluqçuların da cəlb edildiyi növbəti kursların uğurla başa çatması münasibəti ilə buraxılış mərasimi keçirilib.*

Mərasimdə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra çıxış edənlər kursları uğurla bitirən məzunları təbrik ediblər.

Bildirilib ki, tariximizə qızıl hərflərlə yazılan Aprel döyüşlərindən 5 il keçir. Bu döyüşlər zamanı işğaldan azad olunan strateji ərazi, yüksəklik və mövqelər, ardınca 2018-ci ildə qazanılan Günnüt zəfəri, ən sonda isə 44 günlük Vətən müharibəsində şanlı qələbəmiz bütün dünyaya Azərbaycan Ordusunun gücünü və qələbə əzmini göstərdi. İnanırıq ki, bu gün peşəkar hərbi qulluqçu kimi buraxılış mərasimi keçirilən gizirlər və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları da bu döyüşlərdə iştirak edən igid oğulların yolunu davam etdirəcək, Vətəni qorumaq kimi şərəfli vəzifənin öhdəsindən layiqincə gələcəklər.

Çıxışların ardından kursları müvəffəqiyyətlə bitirən məzunlara sertifikat və hədiyyələr təqdim edilib, nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

Xatirə lövhələrinə buraxılış emblemləri vurulub və məzunların tribuna önündən təntənəli keçidi olub.

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycan Ordusunda ehtiyata buraxılan hərbi qulluqçuların yola salınma mərasimi keçirilib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" müvafiq sərəncamının icrası Azərbaycan Ordusunda davam edir.*





2020-ci il oktyabrın 30-dək "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ehtiyata buraxılırlar.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bu münasibətlə Şuşa şəhərində və digər ərazilərdə yerləşən hərbi hissələrdə ordudan tərxis olunan hərbi qulluqçuların yola salınma mərasimi keçirilib.

Əvvəlcə Vətən müharibəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə Vətən müharibəsində qazanılan parlaq qələbədən, Azərbaycan əsgər və zabitlərinin qəhrəmanlıq, şücaət göstərməklə şərəfli missiyanı yerinə yetirərək öz doğma torpaqlarımızı işğalçılardan azad etməsindən danışılıb. Komandanlığın təbrik müraciəti hərbi qulluqçulara çatdırılıb, hərbi xidməti uğurla başa vurmuş gənclərə və xidmətə yeni başlayan əsgərlərə uğurlar arzulanıb.

Gənc əsgərlər isə silahdaşları adından, özündən əvvəlki döyüşçülərin ənənələrini davam etdirəcəklərinə, ərazi bütövlüyümüzü göz bəbəyi kimi qoruyacaqlarına and içib.

Sonda xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya Fəxri Fərman və qiymətli hədiyyə təqdim olunub.

# Azərbaycan və Türkiyə ordularının rabitə qoşunları birgə təlimlərə başlayıb

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Azərbaycan və Türkiyə hərbi qulluqçularının iştirakı ilə rabitə qoşunlarının birgə taktiki-xüsusi təlimləri başlayıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimlər zamanı hərbi rabitəçilər təlim-döyüş tapşırıqlarının yerinə yetirilməsi rayonlarına çıxarılaraq vahid rabitə sisteminin təşkil edilməsi üzrə tapşırıqları yerinə yetirirlər.

Müasir rabitə vasitələrinin və avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi ilə keçirilən təlimlərdə qoşunların qarşılıqlı fəaliyyətinin təşkili, səhra idarəetmə məntəqələrinin açılması və digər tədbirlər icra olunur.

# Azad edilmiş ərazilərimizdə dislokasiya olunan bölmələrimizin mühəndis təminatı üzrə tədbirlərin icrası davam edir



İşğaldan azad edilmiş ərazilərimizdə dislokasiya olunan bölmələrimizin hərtərəfli mühəndis təminatı üzrə tədbirlərin icrası davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işləri aparılır. Avtomobil və döyüş texnikası kolonlarının təhlükəsiz hərəkəti üçün yollar minalardan təmizlənir, bərpa olunur. Dağlıq ərazilərdə yerləşən bölmələrimizin mövqeləri istiqamətində yeni yolların çəkilməsi üzrə mühəndis işləri icra edilir. Bu günədək xeyli sayda mina və partlamamış döyüş sursatı utilizasiya edilib.

Azad edilmiş ərazilərimizdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanması və zərərsizləşdirilməsi üzrə tədbirlər davam etdirilir.

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir

(Əvvəli 1-ci səhifədə)

Ermənistan silahlı birləşmələrinin ordumuzun mövqelərini, kənd və qəsəbələrimizi artilleriya silahlarından güclü atəşə tutması səbr kasasının daşmasında son damla oldu. Ermənistan işğalçı ordusu bölmələrimizi bu döyüşlərə beləcə vadar etdi.

İntensiv döyüşlərlə yadda qalan bu dörd gündə baş verən hadisələr dünya informasiya agentliklərində yuxarı sətirlərdə yer aldı.

O zaman nüfuzlu "Blomberq" agentliyinə müsahibəsində Con Hopkins Universitetinin əməkdaşı Svante Kornell bildirmişdi: "Azərbaycanın siyasəti çox aydın idi, strategiyası ölkələr arasında iqtisadi, siyasi, diplomatik və hərbi tarazlığı elə yüksəltməyə yönəldilib ki, Ermənistanı hansısa sülh sazişini qəbul etməyə məcbur etsin".

Yaşayış məntəqələrimizi atəş altında saxlayan yüksəkliklərdəki düşmən mövqelərini birdəfəlik susdurmaq üçün ordumuzun bölmələri aprelin ilk günlərində hərəkətə keçdi. Cəsur Azərbaycan oğulları Tərtər, Goranboy və Füzuli rayonları istiqamətində düşmənin atəşkəs dövründə işğal etdiyi ərazilərimizdə durmadan möhkəmləndirdiyi və keçilməz hesab etdiyi ön xətt mövqelərini qısa bir vaxtda yarmağı bacardılar və erməni hərbi birləşmələrini qaçmağa vadar etdilər. Bu döyüşlərdə bölmələrimiz çevik hərəkətlə irəliləyərək önəmli yüksəklikləri və 2 min hektardan artıq ərazini düşmən işğalından azad etdilər.

Bu döyüşlərdə Azərbaycanın zabit, gizir və əsgərləri əsl cəsarət və igidlik nümunələri göstərdilər. Zabit və əsgərlərimizin hər biri cəbhədə, sözün həqiqi mənasında, mətanət, dözümlülük, qələbə əzmi nümayiş etdirdi.

O günlərdə Azərbaycan zabitləri əsl fədakarlıq göstərərək şəxsi heyətə nümunə olmağı, döyüşçülərdə ordumuzun gücünə inam aşılamağı, onları qələbəyə aparmağı bacardılar. Bu uğurda onların zəhməti böyük idi. Neçə-neçə zabit və əsgərimiz yaralı halda döyüşü davam etdirərək, şücaət və fədakarlıq göstərdi.



Dövlət tərəfindən yüksək mükafatlara layiq görülən zabit və əsgərlərimizin bu fədakarlığı, mətinliyi ordumuzun real gücündən, yüksək döyüş ruhundan, sarsılmaz iradəsindən xəbər verirdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun Aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşərkən demişdi: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir".

Döyüşlərdən sonra Silahlı Qüvvələrimizin bölmələri azad etdikləri yüksəkliklərdə qısa zamanda möhkəmlənməyi bacardılar. Düşmən həmin əraziləri qaytarmağa nə qədər cəhd göstərsə də, buna nail ola bilmədi, itkilər verərək geri çəkilməyə məcbur oldu. Döyüşçülərimizin apardığı mühəndis-istehkam işləri həmin mövqeləri alınmaz qalaya çevirdi. Amma Azərbaycan Ordusunun bölmələri bu ərazilərdə möhkəmlənib dayanmaq niyyətində deyildi. Bunu 44 gün davam edən Vətən müharibəsi bütün dünyaya nümayiş etdirdi. Aprel döyüşləri tarixi Zəfərimizin müjdəçisi oldu.

**Əbülfət QASIMOV**

# "Aprel döyüşlərindən böyük qələbəyə gedən yollar"

## Aprel döyüşlərinin beşinci ildönümü ilə əlaqədar "N" hərbi hissəsində tədbir keçirilib



***Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tariximizin şanlı səhifələrindən olan 2016-cı ilin Aprel döyüşlərinin beşinci ildönümü ilə əlaqədar olaraq Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər həyata keçirilir.***

Beş il öncə Ermənistan silahlı qüvvələrinin intensiv təxribatlarına cavab olaraq başlanılan Aprel döyüşlərində qazandığımız qələbə dövlətimizin və ordumuzun qələbəsidir. Xalqımızın birliyinin, həmrəyliyinin, vətənpərvərliyinin qələbəsidir.

Bu qələbə ermənilərin uzun illər ərzində yaratdıqları mifi tamamilə darmadağın etdi.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev demişdir: "Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir... Biz bu əməliyyatlar nəticəsində uzun illər ərzində işğal altında qalan torpaqları işğalçılardan azad etdik. O torpaqlarda - Lələtəpədə, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının dağlarında Azərbaycan bayrağını ucaltdıq. Bu, böyük tarixi qələbədir. Bu qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq, Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır".

"N" hərbi hissəsində keçirilən "Aprel döyüşlərindən böyük qələbəyə gedən yollar" adlı tədbirdə bu barədə daha ətraflı məlumat verilib.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyünün təmin olunması, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Aprel döyüşlərindən sonrakı beş il ərzində ordu quruculuğu sahəsində ardıcıl olaraq aparılan uğurlu islahatlardan, ordunun maddi-texniki bazasının daha da möhkəmləndirilməsi, silah və texnikaların modernləşdirilməsi, intensiv keçirilən təlimlərin keyfiyyətinin yüksəldilməsi, peşəkar hərbçi kadrların yetişdirilməsi, dünya ordularının təcrübəsindən səmərəli şəkildə istifadə olunması, şəxsi heyətin döyüş ruhu, mənəvi-psixoloji hazırlığının müntəzəm olaraq yüksəldilməsi, hərbi qulluqçuların sosial-məişət problemlərinin həlli, şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğının artırılması və bütün bunların nəticəsində 2018-ci ildə Günnüt zəfərinin qazanılması, 2020-ci ilin iyulunda Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu ərazisində düşmən təxribatlarının qarşısının mətinliklə alınması və nəhayət 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbə barədə ətraflı danışıb.

Vətən müharibəsi iştirakçısı, "Azərbaycan Bayrağı" ordenli gənc zabit Şəmsi Kazımlı çıxış edərək bu gün də Ali Baş Komandanın əmrlərinə hazır olduğunu bildirib.

Respublikanın Xalq artisti Samir Cəfərov və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti tərəfindən Müzəffər Ali Baş Komandana sədaqəti, şəhidlərimizin xatirəsinə ehtiramı, ordu-xalq birliyini və Azərbaycan əsgərinin şücaət və qəhrəmanlıqlarını tərənnüm edən vətənpərvərlik mahnılarının və şeirlərinin ifası ilə tədbirə yekun vurulub.

# Azərbaycan və Türkiyə ordularının birgə əməliyyat-taktiki təlimləri keçiriləcək

***Azərbaycan və Türkiyə Müdafiə Nazirliklərinin birgə illik planına əsasən, aprelin 8-də hər iki ölkənin hərbi qulluqçularının iştirakı ilə əməliyyat-taktiki təlimləri başlayacaq.***

Ölkəmizdə təşkil olunacaq təlimlər Azərbaycan Ordusunun hərbi birliklərinin cavabdehlik zonalarının müxtəlif istiqamətlərində yerləşən ümumqoşun poliqonlarında keçiriləcək.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimlərin əsas məqsədi Azərbaycan və Türkiyə ordularının əməliyyat bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsi, əməliyyat bölmə komandirlərinin hərbi qərar qəbuletmə, təşəbbüs göstərmə və idarəetmə bacarıqlarının inkişaf etdirilməsidir.

Təlimlər aprelin 9-na kimi davam edəcək.

# Mina təhlükəsizliyinin təmin olunmasında peşəkarlıq əsas şərtdir



*İstənilən lokal və genişmiqyaslı müharibələrin başa çatmasından sonra həmin ərazinin ən böyük problemlərindən biri məhz ərazilərin minalardan və partlamamış sursatlardan təmizlənməsindən ibarət olur. Ümumiyyətlə, mina problemi dünyada qlobal təhlükə sayılır. Müharibəyə və işğala məruz qalmış bir sıra ölkələr, o cümlədən Azərbaycan da bu prosesdən hələ də əziyyət çəkir. Ermənistan 30 illik işğal dövründə və müharibə zamanı işğal olunmuş ərazilərimizi total şəkildə minalayıb. 44 günlük Vətən müharibəsinin başa çatmasına baxmayaraq minalanmış ərazilərin xəritələrini təqdim etməkdən imtina edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşündə bildirib: "Müharibədən sonra bir çox azərbaycanlı şəxs və hərbçi minaya düşərək həlak olub və yaralanıb... Ermənistan bu günə qədər mina xəritələrini vermir. Bu, növbəti hərbi cinayətdir. Ona görə minalardan təmizləmə işi daha çox vaxt aparacaq. Bu işlər başa çatmadan, əlbəttə ki, biz köçkün, qaçqın soydaşlarımızı o torpaqlara qaytara bilmərik".*

Mövzunun aktuallığını nəzərə alaraq Mühəndis Qoşunları İdarəsinin rəisi general-mayor Anar Kərimovla görüşüb, onun təhlükəsizlik tədbirləri, eyni zamanda, görülən işlərlə bağlı geniş söhbətini, Vətən müharibəsində qələbənin qazanılmasında Azərbaycan Ordusunun istehkam bölmələrinin rolu və perspektivləri barədə fikirlərini qələmə aldıq.

Vətən müharibəsində qələbənin qazanılmasına böyük töhfələrini verən istehkam bölmələrimizin rolundan danışan idarə rəisi general-mayor Anar Kərimov bildirdi ki, mühəndis qoşunları üçün zəruri hallar yolların, ehtiyac olan istiqamətlər üzrə marşrutların təhlükəsiz vəziyyətdə istismarının təmin olunması, ilk növbədə qoşunların azad olunmuş ərazilərdə təhlükəsiz hərəkətinin təmin edilməsi, çıxılmış hədlərə, yəni, azad olunmuş ərazilər geridə qalmaq şərtilə dövlət sərhədi boyunca lazım olan və təyin olunmuş istiqamətlər üzrə bölmələrin tərtiblənməsinin və təhlükəsizliyinin təmin edilməsidir. "Buna görə də istər minatəmizləmə, istər maneələğvetmə (onların müəyyən tapşırıqlarına və funksional vəzifələrinə görə adlarında da fərq var), istərsə də xüsusi minatəmizləmə mühəndis-istehkam bölmələrinin eyni zamanda işlərə cəlb olunması bir nömrəli tapşırıq idi. Əvvəlki təmas xətti ilə yanaşı, düşmən geri çəkilərkən də çoxlu sayda maneələr qurmuş, körpüləri, yolayrıcılarını, dar keçidləri minalamışdı. Düşmən körpünü partladır, suyun sağ və sol tərəfindən keçmək imkanı olan yerləri də minalayırdı. Onlar mümkün olan qədər daha çox ərazidə istehkam işləri aparmışdılar. Qubadlı, Kəlbəcər, Laçın istiqamətlərində, dağlıq bölgələrdə belə bu əngəlləri qurmuşdular. Bütün bunlara baxmayaraq bölmələr irəlilədikcə onların yerləşdiyi, cəmləşdiyi rayonlar yoxlanılır və təhlükəsizliyin təmin olunması işinə xüsusi diqqət yetirilir və tapşırıq ən yüksək səviyyədə icra olunurdu. Ali Baş Komandanımızın göstərişi əsasında ərazilərin mina sahələrindən və partlamamış döyüş sursatlarından təmizlənməsi istiqamətində ciddi işlərə başlanıldı. İşlərin sürətlənməsi baxımından bu sahə ilə bağlı Dövlət Komissiyası da yaradıldı. Bu məsələdə söhbət təkcə mina sahəsinin təmizlənməsindən getmir, eyni zamanda, döyüş əməliyyatları gedən ərazilərin sursatların qalıqlarından, partlamamış sursatlardan təmizlənməsindən gedir. Bütün bunlar müəyyən qədər təhlükələr yaradır."

İdarə rəisi müharibədən sonra quruculuq işlərində mühəndis bölmələrinin xüsusi fəaliyyətindən də söz açdı: "Ölkə rəhbərinin göstərişi əsasında işğaldan azad olunmuş rayonlarımızda infrastrukturlar yaradılır. Məsələn, Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinə Füzuli şəhəri yaxınlığında yerləşən hava limanında tikinti işlərinin aparılması məqsədilə ərazinin yoxlanılması həvalə olunub. Bugünkü günə qədər olan məlumata görə, hava limanı üçün nəzərdə tutulan 200 hektara yaxın ərazi yoxlanılaraq təhvil verilib. Ərazidə yoxlama işləri aparılarkən xeyli sayda sursatlar aşkarlanıb. Halbuki o ərazilər təmas xətti deyildi. Təmasdan dərində idi. Bundan başqa, Zəfər yolu inşa olunur. O Zəfər yolu ki, müharibə vaxtı Şuşanın alınması ərəfəsində bizim mühəndis qoşunlarının böyük fədakarlığı, qəhrəmanlığı nəticəsində kolon yolu kimi açılaraq qoşunların irəliləməsini təmin etmişdi.

Müharibə bitdikdən sonra cənab Prezidentin göstərişi əsasında mühəndis-istehkam taborları yaradılıb. Onlardan biri xüsusi minatəmizləmə taborudur. Artıq o tabor bu gün işğaldan azad olunmuş Ağdam, Cəbrayıl, Füzuli rayonlarında həm texnikası, həm də şəxsi heyəti ilə fəaliyyətdədir. Bununla bağlı çox sayda şəxsi heyəti Türkiyə Respublikasına ezam etmişik. Orada şəxsi heyət çeşidli kurslara - əldə hazırlanmış partlayıcı qurğuların zərərsizləşdirilməsi, xüsusi minatəmizləmə kurslarına cəlb olunub. Paralel olaraq Türkiyədən mütəxəssisləri dəvət edərək öz mütəxəssislərimizlə, zabitlərimizlə birlikdə hazırlıq kursları təşkil etmişik. Bütün bunlar işğaldan azad olunan torpaqlarımızın minalardan və partlamamış sursatlardan təmizlənməsi işinə böyük töhfə verəcək. Şəxsi heyətin daha geniş masştabda fəaliyyət göstərməsi onun peşəkarlığının artması deməkdir."

General-mayor Anar Kərimov qürurla bildirdi ki, ordumuzun mühəndis-istehkam bölmələri bu gün verilən tapşırıqları bacarıqla, yüksək peşəkarlıqla yerinə yetirirlər. "Mühəndis qoşunları elə bir qoşun növüdür ki, müharibə zamanı da, müharibə bitdikdən sonra da fəaliyyəti göz önündə olur. Vətən müharibəsi bitdiyi gündən bölmələrin tərtiblənməsi, lazım olan istiqamətlərdə qərara uyğun şəkildə onların yerləşməsi və istehkam dəstəyi, yolların, göstərilən marşrutların təhlükəsizliyinin təmin olunması həyata keçirilir. İstər müharibənin gedişi zamanı, istərsə də müharibədən sonra bütün dövlət qurumlarına istehkam dəstəyi göstərirdik. Hazırda da bu işlər birlikdə davam etdirilir. Bilirsiniz ki, işğaldan azad olunmuş ərazilərimizdə su mənbələrimiz var. Bu, çox vacib məsələdir. Bəndlərin yoxlanılması, kanalların təmizlənməsi icra olunur. Bütün sferalardan hansı tapşırıqlar gəlirsə, onun üzərində dərhal işlənilir, qüvvələr ayrılır və onlara nəzarət olunur. Bu gün əsas məqsədlərimizdən biri də daha geniş spektrdə minatəmizləmə fəaliyyəti başladığı üçün bu təcrübəni təkmilləşdirib tədris müəssisələrində həm kiçik zabitlərimizi daha hazırlıqlı etmək, həm də gələcəkdə bunu yeni gələn nəsillərə öyrətməkdir."

İdarə rəisi bildirdi ki, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanının göstərişi və Müdafiə nazirinin əmrinə əsasən, hazırda Mühəndis Qoşunlarının hissə və bölmələrinin şəxsi heyəti tərəfindən respublikamızın işğaldan azad olunmuş ərazilərinin minalardan və partlamamış döyüş sursatlarından tam təmizlənməsi, partlayıcı vasitələrin və qurğuların axtarılması tapşırığı yerinə yetirilir. "Verilmiş əmrə əsasən mülki əhalinin tez bir zamanda və təhlükəsiz şəraitdə öz doğma torpaqlarına köçməsi üçün hərəkət yolları, hava limanı, əkin sahələri, su anbarları və digər infrastruktur və kommunikasiya xətləri yaradılacaq ərazilər şəxsi heyət tərəfindən axtarılır və təmizlənir. Bu günədək Mühəndis Qoşunlarının hissə və bölmələrinin şəxsi heyəti tərəfindən 4729 (rəqəmlər hər gün dəyişir) hektar ərazi minalardan və partlamamış döyüş sursatlarından tam təmizlənib. Minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi üçün təyin edilmiş ərazi sahəsi xəbərdaredici nişanlarla hasara alınır. Minalardan tam təmizlənmə tapşırığı alan şəxsi heyət qoruyucu istehkam jiletləri ilə təchiz edilir. Gündəlik olaraq qrup rəhbərləri tərəfindən şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılır. Görülən tədbirlərə uyğun olaraq tapşırıq yerinə yetirilərkən bir yerə toplanmamaq, keçidlərdən kənar və yoxlanılmamış yerlərdə gəzməmək, minanın varlığını bilmədən qabaqcadan yoxlanılmamış məftili və başqa partlamayan maneələri yerindən tərpətməmək, irəli, geri çəkməmək, ancaq keçid və cığır işarələri ilə işarələnmiş sahələrdə hərəkət etmələri tapşırılır."

General xidmətə uyğun təhlükəsizlik təbdirlərindən danışarkən bu istiqamətdə vahid qaydaların mövcudluğunu qeyd etdi: "Şəxsi heyətin idarə olunması, mühəndis bölmələrinin tapşırıqları üzrə fəaliyyəti, o cümlədən taktiki-xüsusi fəaliyyətini yerinə yetirməsi üçün bütün ədəbiyyatlarımız, Müdafiə nazirinin əmr və qərarları mühəndis qoşunlarında var. Nəzəri və təcrübi biliklərin şəxsi heyətə komandir hazırlığı zamanı və döyüş hazırlığı prosesində öyrədilməsi davam etdirilir. İstehkam birliklərimizdə şəxsi heyət mühəndis maneələrinin dəf edilməsi və onlarda keçidlərin açılması zamanı təhlükəsizlik tədbirlərini, minapartlayış maneələrinin kəşfiyyatı zamanı təhlükəsizlik qaydalarını təlimata uyğun öyrənir və tapşırıqları həyata keçirir. Bundan başqa, keçidlər hazırlananda və ərazi minalardan tam təmizlənəndə təhlükəsizlik tədbirləri nəzərdə tutulan şərtlərlə tənzimlənir. Mina təhlükəsizliyinin təmin olunmasında peşəkarlıq əsas şərtdir. Bu gün təhlükəsizlik birinci növbədə qarşımıza tapşırıq şəklində qoyulub. Əlbəttə ki, bütün işlər yerinə yetiriləcək, amma maksimum şəkildə biz şəxsi heyəti qorumalıyıq. Bilirsiniz ki, bunun üçün cənab Prezidentin göstərişiylə 20 ədəd xüsusi mexaniki minatəmizləmə texnikası alınıb. Əminliklə deyə bilərəm ki, bu texnikalar quruculuq işlərinə böyük töhfələr verəcək. Artıq 2 ədəd "MEMATT" markalı mexaniki minatəmizləmə texnikası Füzuli və Ağdam bölgələrində işləri yerinə yetirir. Bu texnikanın gündəlik gördüyü işlərin hesabatını alırıq. Biz də bu məlumatları Dövlət Komissiyasına, mərkəzə çatdırırıq. Bu texnikanın üstünlüyü ondan ibarətdir ki, 500 metr məsafədən idarə olunur və artıq onun işlədiyi əraziyə insanın girməsinə ehtiyac qalmır. Partlayış da baş verərsə, insan faktoru kənarda qalmış olur. Bu işlərə cəlb olunan şəxsi heyətin təhlükəsizliyi baxımından onlar dünyanın ən müasir avadanlıqları ilə də təmin ediliblər. Bu, minaaxtaranlar rahat işləmək üçün selektivdir, effektivliyi həddən artıq çoxdur, həssasdır. Ən xırda metal parçası olduğu halda belə onu aşkarlayır. Hazırda istifadədədir. Döyüş əməliyyatları zamanı da bu minaaxtaran avadanlıqlarından geniş istifadə olundu və öz lazımi bəhrəsini verdi."

Söhbətin sonunda idarə rəisi xüsusi olaraq onu da vurğuladı ki, dünyanın aparıcı orduları mühəndis qoşunlarını, istehkam sinfini birinci kateqoriyalı sinif kimi qəbul edir. "Hərb tarixindən bilirik ki, bu taborlara pioner taborları deyiblər. "Pioner" sözü isə öndə gedən deməkdir. Mühəndis qoşunlarında daima innovativ fikirlər və yenilənmələr olması əsas şərtdir. Artıq Azərbaycan Ordusunun gələcəkdə dünyanın bir çox ordularına deyə biləcəyi, örnək gətirə biləcəyi və hətta tarixə düşəcək nümunələri var. Vətən müharibəsində düşmənin yaratdığı əngəl və manea sistemini yararaq, qarışıq, birlik əməliyyatının icra olunmasında, qoşunların hərəkət qabiliyyətinin bu formada saxlanılmasında, Zəfər yolunun çəkilməsi və nəticədə hədəfə gəlib çataraq torpaqlarımızın azad edilməsində Azərbaycan Ordusunun mühəndis qoşunlarının örnəkləri, nümunələri hədsiz çoxdur və bu da hərb tariximizə qızıl hərflərlə yazılacaq."

**Söhbəti apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

Təlim

# Döyüş hazırlığı Zəfərdən sonra da yüksək səviyyədə saxlanılır

***İstehkamçıların təlim-məşqlərini izləmək həmişə ətrafdakılarda böyük maraq doğurur. Döyüşlər zamanı bu ixtisas sahiblərinin üzərinə də böyük və mühüm vəzifələr düşür. Bu mühüm vəzifələri yerinə yetirmək üçün isə, təbiidir ki, istehkamçının hazırlığı, peşəkarlığı yüksək səviyyədə olmalıdır. Peşəkarlıq yüksək səviyyədə olmalıdır ki, qarşıya qoyulan tapşırıq yerinə yetirilərkən, səhvə, qüsura yol verilməsin. Belə bir deyim var ki, istehkamçılar yalnız bir dəfə səhv edirlər. Bu səhvdən qaçmaq üçün isə öz sahənin peşəkarı olmalısan. Təcrübə, peşəkarlıq isə müntəzəm olaraq keçirilən dərs və məşğələlərdə, təlimlərdə qazanılır. Ona görə də komandanlıq daim dərs və məşğələlərin keçirilməsinə böyük diqqət göstərir, hərtərəfli şərait yaradır. Zabitlər isə bir qayda olaraq xidmətlərinə məsuliyyətlə yanaşır, şəxsi heyətin döyüş hazırlığının artırılması üçün dərs və məşğələlərin səmərəli şəkildə keçirilməsinə böyük önəm verirlər.***



Bu günlərdə ezamiyyətdə olanda istehkamçıların təlim-məşqlərini yaxından izlədik. Gördüklərimiz bizdə xoş təəssüratlar oyatdı. Zabit sıranın qarşısında dayanaraq dərsin mövzusunu şəxsi heyətə geniş açıqlayır, əyani vəsaitlərdən də istifadə edərək, tapşırığı yerinə yetirərkən tələb olunan bütün zəruri hərəkətləri əsgərlərə dərindən və əhatəli aşılamağa çalışırdı. Şəxsi heyət isə bütün diqqəti komandirlərinə yönəldərək, məşğələnin gedişini həvəslə izləyirdi. Zabit məşğələnin mövzusunu geniş danışdıqdan sonra, əsgərlərdən birini sıranın qarşısına çağırdı və bir az əvvəl göstərdiyi hərəkətləri təkrar etməyi tapşırdı. Əsgər əyani vəsaitlərdən də istifadə edərək komandirin tapşırığını yerinə yetirdi. Mövzuya uyğun olaraq göstərilən bütün hərəkətləri tələb edilən qaydada təkrar etdi. Beləcə, məşğələdə iştirak edən əsgərlər bir-bir irəli çıxaraq məşğələ zamanı mənimsədikləri vərdişləri göstərdilər. Komandirin üzündən razılıq əlaməti oxunur, hiss olunur ki, əsgərlərin bacarıq və bilik səviyyəsi yüksəkdir.

Bir azdan məşğələdə fasilə elan olundu. Arada yaranmış vaxtdan istifadə edərək istehkamçılarla söhbətləşib, ətraflı tanış olduq. Bayaqdan şəxsi heyətə məşğələ keçən baş leytenant Nuran Bəşirzadə ilə söhbət etdik. Gənc zabit şəxsi heyətin döyüş hazırlığının yüksək olmasından ürəkaçıqlığı ilə danışdı. Dedi ki, əsgərlərimizin hazırlığı, peşəkarlığı yüksək səviyyədədir. "Buna görə də biz onlarla birlikdə 44 gün davam edən Vətən müharibəsində bütün döyüş tapşırıqlarını bacarıqla, peşəkarcasına yerinə yetirdik. Nə qədər riskli və təhlükəli olsa da, qoşunlarımızın irəliləməsi, düşmənin torpaqlarımızdan qovulması üçün təyin olunan strateji nöqtələrdən dəhliz açdıq. Zabit və əsgərlərimizin işğalçıların üzərinə getmələrini təmin etdik. Bütün bu və ya digər tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsində bölməmizin bütün zabit və əsgərləri iştirak etdilər. Hamı bir nəfər kimi erməni işğalçılarına qarşı cəsarət və hünərlə vuruşdu. İkinci Qarabağ müharibəsində hər kəs üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldi. Məhz buna görə də biz Vətən müharibəsində düşmənə sarsıdıcı zərbələr endirərək, torpaqlarımızı erməni qəsbkarlarından azad etdik. Qaçqınların, köçkünlərin torpaq həsrətinə, yurd nisgilinə son qoyduq. Buna görə də indi xalqımızın yanında başımız uca, alnımız açıqdır".





Baş leytenant N.Bəşirzadə sözünə davam edərək onu da dedi ki, əks-hücum əməliyyatlarında qazandığımız qələbələr bizi arxayınlaşdırmır. "Əksinə, müharibədən sonra üzərimizə düşən vəzifənin öhdəsindən bacarıqla gəlməyimiz üçün döyüş hazırlığımızı plana uyğun olaraq artırır, əsgərlərimizin biliklərini, və təcrübələrini daha da təkmilləşdirməyə çalışırıq. Şəxsi heyət bu təlim-məşqlərdə fəal iştirak edir, tələb olunan hərəkət və vərdişləri dərindən mənimsəyir. Döyüş hazırlığı Zəfərdən sonra da yüksək səviyyədə saxlanılır. Bugünkü məşğələnin mövzusu "Tankəleyhinə minanın torpaq səthinə qurulması"dır. Biz məşğələlərin mövzularını əsgərlərimizə geniş və əhatəli şəkildə izah edirik. Onların vərdiş və bilikləri dərindən mənimsəmələri üçün əyani vəsaitlərdən də səmərəli istifadə etməyə çalışırıq. Məşğələlər bir qayda olaraq döyüş şəraitinə uyğun keçirilir. Mövzuların belə geniş və əhatəli izah olunması vərdişlərin dərindən mənimsənilməsinə əlverişli şərait yaradır. Buna görə də dərs və məşğələlərin bu formada, bu üsulda keçirilməsinə üstünlük veririk. Məqsədimiz odur ki, əsgərlərimiz bilikli və bacarıqlı olsunlar. Verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirsinlər".

- Vətən müharibəsində iştirak etməyimizdən və erməni qəsbkarları üzərində qələbələr qazanmağımızdan qürur hissi duyuruq, - deyə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Babək Hümbətov söhbətimizə qoşuldu. - Bildiyimiz kimi, qələbələrin əldə olunmasında döyüş hazırlığının rolu əvəzsizdir. Ona görə də bütün diqqəti şəxsi heyətin döyüş hazırlığının artırılmasına, dərs və məşğələlərin səmərəli keçirilməsinə yönəltmişik. Müntəzəm olaraq təlim keçir, döyüş hazırlığımızı artırırıq. Bilirik ki, döyüş hazırlığımız yüksək olarsa, peşəkarlığımız bir o qədər artar. Bunu biz Vətən müharibəsində bir daha sınaqdan keçirdik.

Daha sonra məşğələdə fəal iştirak edən istehkamçı əsgərlərdən Anar Baxşıyev, Canəli İsmayılov, Vüsal Ağayev, Allahverdi Nəcəfli, Camo Əliyev, Tohid Əsgərov və başqaları ilə də söhbət etdik. Onların həm təlimlərdə, həm də döyüşlərdə qazandıqları uğurlar bizi çox sevindirdi. Qələbə bu əsgərlərə çox yaraşırdı.

Elan olunmuş fasilə başa çatdı. İstehkamçılar onlar üçün ayrılmış sahədə yerlərini tutaraq məşğələlərinə davam etdilər. Belə hazırlıqlı, peşəkar əsgərlər həmişə uğurlar qazanır.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

## Mövzu: Rus İmperiyasının Qafqaz istilası. Kürəkçay, Gülüstan və Türkmənçay müqavilələri

***İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirmək tövsiyə olunur.***

**Suallar:**

**1. Azərbaycanın Rusiya və İran arasında parçalanması. Kürəkçay müqaviləsi.**

**2. İşğala aparan yol. Gülüstan və Türkmənçay müqavilələri.**

### Azərbaycanın Rusiya və İran arasında parçalanması. Kürəkçay müqaviləsi

Tarixin bütün dövrlərində xalqımız müxtəlif siyasi-hərbi münaqişələrə cəlb olunmuş, nəticədə zaman-zaman əraziləri işğal olunmuş, insanları qətlə yetirilmişdir. Müharibələr nəticəsində xalqın minilliklər boyu formalaşmış mənəvi-dini-milli dəyərlərinə ziyan dəymiş, torpaqlarının bir hissəsi əldən getmiş, Cənubi Qafqaz Rusiyaya birləşdirildikdən sonra bu proses güclənmişdir.

Cənubi Qafqazın siyasi və hərbi-strateji əhəmiyyəti böyük idi. Çar Rusiyası Cənubi Qafqazı əlavə gəlir mənbəyinə, Xəzər dənizini Rusiyanın daxili dənizinə çevirməyə çalışırdı. Azərbaycanın əlverişli coğrafi mövqeyi, təbii sərvətləri, xüsusən də faydalı qazıntı yataqları artıq çar Rusiyasına məlum idi. Azərbaycanda bol olan qızıl, boya, yun, ipək, pambıq, tütün, neft çar Rusiyasını xammal və yanacaqla təmin edə bilərdi. Bu ərazilərin işğalı Rusiya-Osmanlı münasibətlərində qüvvələr nisbətini Rusiyanın xeyrinə həll edə bilərdi. Cənubi Qafqazdakı mürəkkəb siyasi, iqtisadi və beynəlxalq vəziyyət Rusiyanın işğalçı planlarının həyata keçirilməsini asanlaşdırırdı. Feodal ara müharibələri və xarici işğalçıların basqınları Cənubi Qafqazı zəiflədirdi. Ayrı-ayrı xanların Azərbaycanı birləşdirmək cəhdləri də baş tutmamışdı.

Rusiya, ilk növbədə Azərbaycanın Xəzəryanı vilayətlərini ələ keçirməyə çalışırdı. 1802-ci ildə Georgiyevsk (Şimali Qafqazda yerləşir, 1802-1822-ci illərdə Qafqaz quberniyasının mərkəzi olmuşdur) şəhərində Şimali Azərbaycan xanlarının və Qafqazın digər hakimlərinin nümayəndələri ilə görüş keçirildi. Digər Azərbaycan xanlıqlarının nümayəndələrinin görüşdə iştirak etməmələrinə səbəb isə, buna qədər onların Qacarlar şahının nümayəndəsi İbrahimxəlil xanın yanına gələrək Qarabağın tabe olmasını tələb etməsidir. 1802-ci ildə Georgiyevsk müqaviləsi imzalandı. Müqaviləyə əsasən "onu imzalayanlar öz xahişlərinə görə" Rusiyanın himayəsinə qəbul olundu, Rusiya isə onların müstəqilliyinə toxunmayacaqlarına, Qacarlar və Osmanlı dövlətlərinin təhlükəsindən onları müdafiə edəcəyinə vəd verdi. Lakin çar Rusiyası həmin müqaviləyə əməl etmədi və Azərbaycan xanlıqlarının ərazilərini zəbt etmək üçün hazırlığa başladı.

XIX əsrin əvvəllərində xanlıqlar arasında münasibətlər kəskin olduğundan yeni işğallara şərait yarandı. Ara müharibələri ölkənin sosial-iqtisadi vəziyyətini ağırlaşdırdı. Ölkədə siyasi birliyin olmaması xarici qüvvələrin işğalı üçün əlverişli şərait yaratdı. Hələ I Pyotrun yürüşü zamanı ruslar erməni amilinə xüsusi əhəmiyyət vermişdilər. Çar Rusiyası ermənilərdən Azərbaycana qarşı casusluq fəaliyyətində istifadə edirdi. İşğalçılar üçün lazımi casusluq məlumatlarının toplanması üçün ermənilər "xüsusi" fəallıq göstərirdilər.

Azərbaycan, Osmanlı və Gürcüstan torpaqlarında "böyük Ermənistan" dövləti yaratmaq xülyasında olan ermənilər çar Rusiyasının Qafqazdakı irticaçı (siyasi düşmən, mədəniyyət və tərəqqi düşməni) siyasətinə kömək etməklə məkrli məqsədlərinə çatmağa ümid edirdilər.

1801-ci il çar Rusiyası gürcü zadəgan nəslindən olan, qəddar, Azərbaycan xalqını, ümumiyyətlə, Cənubi Qafqazın türk-müsəlman əhalisini sevməyən general Sisianov, gürcü hakimlərini də ətrafında toplayaraq, Gürcüstan ərazisindən istifadə etməklə Azərbaycanın şimal-qərb torpaqlarını ələ keçirməyə - işğalçılıq planlarını həyata keçirməyə başladı. 1803-cü ilin yazında general Qulyakovun başçılığı altında rus qoşunları Car-Balakəndə yerli əhalinin müqavimətini qırdıqdan sonra Balakəni yandırdılar. Aprelin 12-də Car-Balakəndən olan səlahiyyətli nümayəndə heyəti Car-Balakən əyalətinin Rusiyanın hakimiyyəti altına alınması barədə "Andlı öhdəlik" sənədi imzaladı. Lakin yerli əhalinin itaət şərtlərini yerinə yetirmədiyini bəhanə edən general Qulyakov 1804-cü ilin yanvarında yenidən Car-Balakənə hücum etdi. Car-Balakən yenidən işğal olunub yandırıldı. Rus qoşunları hücumlarını davam etdirdi və Zaqatala yaxınlığındakı dərədə carlıların güclü müqaviməti ilə üzləşdilər. Qanlı döyüşdə carlılar qələbə qazandılar və general Qulyakov öldürüldü. Carlılar yenidən hücuma keçmiş rus qoşunlarına müqavimətin mənasız olduğunu görərək mübarizəni dayandırdılar. Martın 29-da Car-Balakən işğal olundu. Car-Balakənin işğalından sonra qonşu İlisu sultanlığı da Rusiya təbəəliyini qəbul etməli oldu.

Car-Balakən əyaləti rus qoşunları tərəfindən işğal edildikdən sonra general Sisianov Azərbaycanın içərilərinə doğru sonrakı irəliləyişinin açarını Gəncə xanlığının ələ keçirilməsində görürdü. 1804-cü il yanvarın 2-dən 3-nə keçən gecə rus qoşunları qalaya hücuma başladılar. Qalanın müdafiəçiləri inadlı müqavimət göstərdilər. Cavad xan və onun oğlu Hüseynqulu ağa döyüşlərdə qəhrəmancasına həlak oldular. Qanlı döyüşlərdən sonra Gəncə qalası rus hərbi dəstələri tərəfindən tutuldu. Gəncə xanlığı ləğv olundu, şəhərin qədim adı dəyişdirildi və I Aleksandrın arvadının şərəfinə Yelizavetpol adlandırıldı. Gəncənin süqutundan sonra Gəncə xanının vassal asılılığında olan Samux hakimi də Rusiya təbəəliyini qəbul etməyə məcbur oldu. Beləliklə, Rusiya Azərbaycanın digər ərazilərini işğal etmək üçün imkan qazandı.

Gürcüstanın, Şimali Azərbaycanın bir hissəsinin Rusiya tərəfindən işğalı Qacarlar və Osmanlı dövlətlərinin, habelə Cənubi Qafqazda möhkəmlənməyə çalışan İngiltərə və Fransanın narahatlığına səbəb oldu. Fətəli şah Qacar əvvəlcə Gürcüstan və Gəncə ilə həmsərhəd olan bütün xanlıqların ərazilərini tabe etmək niyyətində idi. Lakin Qacarlar dövlətinin daxilində baş vermiş çaxnaşmalar və İngiltərənin vəd etdiyi köməyi göstərməməsi bu tədbirləri yarımçıq qoydu. Bununla belə, İngiltərə Qacarları Rusiya ilə müharibəyə qızışdırırdı.

1804-cü ilin mayında Qacarlar dövləti Rusiyadan öz qoşunlarını Cənubi Qafqazdan çıxarmasını tələb etdi. Tələb rədd olundu və 1804-cü ilin iyulunda 10 il davam edən Rusiya-Qacarlar müharibəsi başlandı.

Qarabağ xanı İbrahimxəlil xan xanlığının müstəqilliyini qoruyub saxlamaq üçün Rusiyaya meyil edirdi. O, Qacarların qoşunlarının hücumunun qarşısını almaq üçün Sisianovdan hərbi kömək istədi. Qarabağ xanının Rusiya ilə yaxınlaşmasından həyəcana düşmüş Qacarlar dövləti 500 nəfərlik dəstəni Qarabağa göndərdi. Lakin İbrahimxəlil xan dəstəni məğlub etdi. Xanın bu qələbəsindən sonra Sisianov Qarabağa mayor Lisaneviç başda olmaqla hərbi dəstə göndərdi. Eyni zamanda, o, xanın Rusiya təbəəliyinə keçməsini tələb etdi. İbrahimxəlil xan xanlığın qoruyub saxlamaq məqsədilə Sisianovla görüşməyə razılıq verdi. General Sisianov və İbrahimxəlil xan Gəncə yaxınlığındakı Kürəkçayın sahilində 1805-ci il mayın 14-də müqavilə imzaladılar. Müqaviləyə əsasən xan, onun varisləri və xanlığın bütün əhalisi Rusiya təbəəliyinə qəbul olunur və onların üzərinə rus çarına sadiq qalmaq tələbi qoyulurdu. Çar isə öz növbəsində, xan sülaləsinin öz ərazilərində hakimiyyətini bütün zamanlar üçün təsdiq edirdi. Lakin hər dəfə xan varisləri çar tərəfindən təsdiq olunmalı idi. Xan rus qarnizonunu Şuşaya buraxmalı və onu zəruri şeylərlə təmin etməyi, hər il öz gəlirlərindən Rusiya xəzinəsinə 8 min çervon xərac ayırmağı öhdəsinə götürdü. Bir həftə sonra İbrahimxəlil xanın vasitəçiliyi ilə Şəki xanlığı ilə də belə bir müqavilə bağlandı.

### İşğala aparan yol. Gülüstan və Türkmənçay müqavilələri

Hər dəfə xalqımızın faciələri, ərazilərinin işğalı səbəbləri ilə bağlı materialları, əski sənədləri araşdırarkən belə bir qənaət yaranır ki, tariximizin bütün qanlı səhifələri Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsinə gətirib çıxarmış Gülüstan və Türkmənçay müqavilələrindən başlayır. Çar Rusiyasının Azərbaycana qarşı ekspansionist siyasəti rəsmən 1804-1813-cü illər Rus-İran müharibəsi ilə başlayır. 1805-ci ildə Azərbaycanın Qarabağ və Şəki xanlıqları ilə Rusiya arasında Kürəkçay müqaviləsi imzalanır. Müqaviləyə görə bu xanlıqlar Rusiyaya ilhaq edilir və müstəqil xarici siyasət yürütməkdən məhrum olur. 1805-ci ilin axırlarına doğru Bakı və Şirvan xanlıqları da işğal edilir. Talış xanlığının işğalı ilə Rusiyanın Şimali Azərbaycanı tamamilə özünə ilhaq etməsi prosesi başa çatır. Bu mərhələ başa çatdıqdan sonra İranın Rusiya ilə müqavilə bağlaması reallaşır və sülh danışıqları başlayır. 1813-cü il oktyabrın 16-da Gülüstan kəndində, rus ordugahında məşhur Gülüstan müqaviləsi imzalanır. Bu müqavilə çar Rusiyasının Azərbaycanı işğal etdiyini rəsmən təsdiqləyir. Müqaviləyə əsasən, Gəncə, Qarabağ, Şəki, Şamaxı, Quba və Talış xanlıqlarının əraziləri, Şərqi Gürcüstan və Dağıstan da Rusiyaya ilhaq edilir. Xəzər dənizində donanma saxlamaq hüququ yalnız Rusiyaya verilir. Bu o vaxt idi ki, rus çarı I Aleksandr Napoleon Bonaparta qarşı Leypsiqdə müharibə cəbhəsində idi. Ancaq İranla sülh müqaviləsi ona Fransadan daha vacib idi. Bu hadisə tariximizdə çox faciəvi rol oynamışdır.

1826-cı ildə Qacarın qoşunlarının Rusiyanın nəzarətində olan Azərbaycan torpaqlarına daxil olması ilə Rusiya-İran müharibəsi yenidən başlayır. Döyüşlərdə Qacarın qoşunları ağır məğlubiyyətə düçar olur. 1826-cı ilin axırlarında Şəki və Lənkəran xanlıqları da ləğv olunur, 1827-ci ildə Rusiya Azərbaycan ərazilərini işğal edə-edə Təbrizə girir və şəhər rusların əlinə keçir. 1828-ci ilin yanvar-fevral aylarında ruslar Urmiya və Ərdəbilə daxil olurlar.

Rusiya Dərbəndi özünə birləşdirdi, Borçalını Gürcüstana, İrəvanı, Zəngəzuru, Göyçəni və Dərələyəzi ermənilərə verdi. Nəticədə Azərbaycan torpaqları hesabına sonralar Ermənistan dövləti yaradıldı.

1828-ci il fevralın 10-da İngiltərənin səfiri Mak Donaldın vasitəçiliyi ilə Təbriz yolunun üstündə yerləşən Türkmənçay kəndində I Nikolay ilə Fətəli şah arasında sülh müqaviləsi imzalandı. Bununla da Azərbaycanın işğalı başa çatdı. Müqavilənin 15-ci maddəsinə əsasən, erməni əhalisinin İrandan Cənubi Qafqaza hərəkətinə icazə verildi. Müqavilənin bağlanması münasibətilə dərhal rus toplarından 101 yaylım atəşi açıldı. Ertəsi gün "xoş xəbər"i Aleksandr Qriboyedov Rusiyaya çatdırdıqdan sonra Petropavlovsk qalasında da top atəşləri açıldı, rus xalqı bu münasibətlə təbrik edildi.

Rus-İran müharibəsində həlledici sonluq olan Türkmənçay müqaviləsi Azərbaycanı param-parça etdi. Müqaviləyə əsasən, Araz çayı sərhəd olmaqla Azərbaycanın ərazisi şimal və cənub hissələrinə bölündü. Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı, Talış xanlığı, Şərqi Gürcüstan və Dağıstan Rusiyaya təslim edildi.

Gülüstan müqaviləsindən fərqli olaraq, Türkmənçay müqaviləsinin ağır şərtləri daha tez reallaşdı. Yeni işğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının torpaqları "erməni vilayətləri" elan edildi.

Ermənilər Türkmənçay müqaviləsinin şərtlərindən çox məmnun idilər. Tarixçilər erməniləri Türkmənçayın övladları adlandırırdılar, çünki Türkmənçay müqaviləsindən əvvəl ermənilər vətənsiz olublar. Erməni tarixçisi Anahid Terminasın qeyd etdiyi kimi, "ermənilər 1917-ci ilədək Qafqazın heç bir məntəqəsində çoxluq təşkil etməmişlər və onların müəyyən bir əraziləri də yox idi".

O vaxtdan bəri Azərbaycan tarixinin hər səhifəsində erməni qanının izi var. Erməni terrorçuları havadarlarına arxalanaraq bütün dövrlərdə Cənubi Qafqazda, o cümlədən Azərbaycanda qan tökmüş, torpaqlarımızı zəbt etmişlər. Adı "sülh müqaviləsi" olsa da, Türkmənçayın kəsdiyi yerdən hələ də Azərbaycanın qanı axır.

Hamımızın Azərbaycan adlı bir Vətəni var! Qoynunda dünyaya göz açdığımız, minbir nemətindən dadıb isti qucağında boya-başa çatdığımız bu əvəzolunmaz diyar azərbaycanlı adını qürur və iftixarla daşıyan hər kəs üçün müqəddəs və ülvidir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Vətən müharibəsində zəfər çalaraq erməni işğalçılarını kapitulyasiyaya məcbur etdi, düşməni qovaraq ərazi bütövlüyümüzü bərpa etdi. Bununla da Azərbaycan yeni inkişaf dövrünə qədəm qoydu.

Yaşadığımız mövcud dövrdə dünyada mürəkkəb və ziddiyyətli proseslər davam etməkdədir! Hələ də dünyada ədalətsizliklər mövcuddur! Hələ də dünyada güclülər zəiflərin haqqını tapdalamaq istəyir! Odur ki, biz daima güclü olmalıyıq. Güclü olmağın əsas şərti isə döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməkdən, döyüş texnikasından və silahlardan bacarıqla istifadə etmək üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da təkmilləşdirməkdən, mənəvi-psixoloji hazırlıqlarını artırmaqdan keçir. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi bilikləri dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla Azərbaycan naminə, onun dünyada yeri, yüksək nüfuzu uğrunda daim mübarizə aparmış olur. Yalnız bu halda anamız Azərbaycanı qoruya, yüksəldə və hamımız üçün qürur mənbəyinə çevirə bilərik.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# "Vətən müharibəsi qazilərinin müalicəsi ciddi nəzarətdə saxlanılır"



***Vətən müharibəsində şəhidlərimiz, yaralılarımız olub. Yaralı hərbçilərin tezliklə sağalması üçün əlimizdən gələni edirik. Döyüşlərin davam etdiyi dövrlərdə qoşunlarımız irəlilədikcə işğaldan azad edilən ərazilərdə mobil hospitallar yaradılıb, yaralılara müvafiq tibbi yardım göstərilib. İxtisaslı müalicəyə ehtiyacı olanlar isə Baş Klinik Hospitala köçürülüb.***

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi vəzifəsini icra edən tibb xidməti polkovniki Firuddin Nəbiyev Silahlı Qüvvələrin Baş Klinik Hospitalında hərbi həkimlərin Vətən müharibəsi dövründə və işğaldan azad edilmiş ərazilərdə hazırkı fəaliyyəti ilə bağlı keçirilən brifinqdə deyib.

F.Nəbiyev qeyd edib ki, müharibə dövründə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi ilə (TƏBİB) də sıx əməkdaşlıq etdik, ərazilərdə yerləşən xəstəxanaların, o cümlədən özəl klinikaların həkimləri hərbçilərimizin müalicəsinə yaxından dəstək göstərdilər.

Bildirilib ki, Vətən müharibəsində yaralanan qazilərdən 59-nun müalicəsi hazırda davam etdirilir. Həmin qazilər Baş Klinik Hospitalda və Bilgəhdəki hospitalda müalicə alırlar.

Məlumat verilib ki, müalicəsi başa çatan 200-ə yaxın hərbi qulluqçunun sənədləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilib və onlara sosial müavinət təyin olunub. Hazırda tərxis olunmayan, ev şəraitində müalicə almaq istəyən qazilərin bəzilərinə məzuniyyət verilib. Məzuniyyətdə olduqları dövrdə də onların tibbi təminatı hospital tərəfindən həyata keçirilir. Yüksək rütbəli zabitlərin, gizirlərin, habelə müəyyən səbəblərə görə tərxisə buraxılmış zabitlərin tibbi təminatı da bizim üzərimizə düşür.

Qazilərin hospitallarda müalicəsinin daha məqsədəuyğun olduğunu vurğulayan polkovnik qeyd edib ki, hazırda orduda tibbi təminat və dərmanlarla təchizatla bağlı hər hansı problem yoxdur. Bütün hərbi qulluqçuların müalicəsi ciddi nəzarətdə saxlanılır.

Qazilərin xaricdə və ölkəmizdəki klinikalarda müalicəsi məsələsinə toxunan Firuddin Nəbiyev bildirib ki, "YAŞAT" Fondu bu istiqamətdə lazımi tədbirlər görür. Fondun dəvəti ilə Türkiyədən gələn həkimlər müalicə prosesində iştirak edir, yaxud müalicə üçün xaricə göndərilməli olan qazilər müəyyənləşdirilir. İndiyədək 54 qazi Türkiyəyə müalicəyə göndərilib, onlardan 4-ü sağalaraq geri qayıdıb. Bununla bağlı işlər hazırda da davam etdirilir.

Brifinqdən sonra jurnalistlər hospitalda qazilərin reabilitasiya prosesi ilə tanış olub, onlarla söhbət ediblər. Müalicə olunan hərbi qulluqçular onlara göstərilən diqqət və qayğıdan, eləcə də yaradılan şəraitdən razılıqlarını bildiriblər.

## Medallı igidlərimiz

# Qalib ordunun hərbi mundirini daşımaq qürurvericidir

***"Dəmir yumruq" əməliyyatı Azərbaycan tarixinə qızıl hərflərlə yazılan və ömür boyu hafizələrdən silinməyəcək mötəbər hadisələrdən biri oldu. Uzun müddət hər bir azərbaycanlının səbirsizliklə gözlədiyi Böyük Qələbə müjdəsini Azərbaycan əsgəri öz xalqına bəxş etdi.***



Məlumdur ki, bəd xislətli niyyətindən əl çəkməyən separatçı rejimin silahlı birləşmələrinin ənənə halını almış təxribat xarakterli addımlarının qarşısı daim ordumuz tərəfindən qətiyyətlə alınıb. Lakin sentyabrın 27-də düşmənin açdığı atəş rəşadətli ordumuz tərəfindən birdəfəlik cavab atəşi ilə susduruldu. Vətən müdafiəçisi oğullarımız əks-hücum həmləsi ilə düşməni darmadağın etdi, onların uzun müddətdir işğal etdiyi tarixi ərazilərimizi 44 günə Vətən torpaqlarına birləşdirməyi bacardı. Bu döyüşdə təkcə düşmən deyil, bütün dünya xalq-ordu-dövlət birliyimizin sarsılmaz olduğunun şahidi oldu. Vətəninə bağlı, xalqına sadiq qalmağı özünə ümdə vəzifə bilən igidlərimiz tarixi köklərimizə söykənən qəhrəmanlıq ənənələrini bu döyüşdə yenidən layiqincə yaşatdılar. Böyük Qələbənin qazanılmasında şəhidlərimiz, yaralı qazilərimiz xalqımızın ömürlük ehtiramını qazanmış oldular. Döyüşlərdə iştirak edən hər bir Vətən oğlu sübut etdi ki, onun vətənpərvərlik hissinin qarşısında düşmən tab gətirə bilməz. Azərbaycan əsgəri xalqın və Ali Baş Komandanın ona olan etimadını doğrultmaq üçün vaxtından, hava şəraitindən, relyefdən asılı olmayaraq düşmənə qarşı rəşadətlə vuruşdu, qələbə qazandı.

Baş leytenant Ayxan Vüqar oğlu Nemətli Zəfər döyüşünün iştirakçısı olan Vətən oğullarından biridir. Gənc zabit 1995-ci il oktyabrın 1-də Şəki rayonunda anadan olub. 2001-ci ildə Bakı şəhəri 251 saylı tam orta məktəbin 1-ci sinfinə gedən müsahibimin hərb sənətinə olan marağı 2009-cu ildə onun yolunu Cəmşid Naxçıvanski adına Hərbi Liseydən saldı. 2012-ci ildə həmin liseyi bitirən Ayxan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində hərbi təhsilini daha da təkmilləşdirərək 2016-cı ildə leytenant rütbəsi ilə ön xətdə yerləşən "N" hərbi hissəsində xidmətə başladı. Ötən il sentyabrın 27-dən başlanan 44 günlük Vətən müharibəsindəki fəaliyyətindən danışan gənc zabit seçdiyi peşənin sahibi olmaqdan qürur duyduğunu qeyd etdi. Söhbət zamanı öyrəndik ki, baş leytenant Ayxan Nemətli döyüşlərin ilk günündən düşmənin təxribatının qarşısını almaq məqsədilə keçirilən əks-hücum əməliyyatı zamanı Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib. Füzulidə düşmənin ön xəttinin yarılmasında, dayaq məntəqələrinin və postlarının darmadağın edilməsində tabeliyindəki şəxsi heyət ilə birlikdə böyük hünər göstərib, Xocavənd rayonunun Düdükçü kəndi istiqamətində gedən döyüşlər zamanı düşmənin artilleriyadan atdığı mərminin partlaması nəticəsində döş qəfəsindən qəlpə yarası alıb. Xoşbəxtlikdən qəlpə onun ürəyinin 4 santimetr yuxarısını dəlib. Cəsur zabit tibbi yardım göstərildikdən sonra yenidən döyüş meydanına qayıdaraq düşmənə qarşı döyüşüb. Sinəsində hələ də düşmən tərəfindən atılan mərminin qəlpəsini daşıyır. Zabit qeyd etdi ki, xalqımızın bir zamanlar qəlbində daşıdığı Vətən həsrətinin yanında bu qəlpə heç nədir. "Şükürlər olsun öz doğma yurdundan ayrı düşən həmvətənlərimizin qəlbindəki bu yara artıq sağalıb, məcburi köçkün statusu artıq yoxdur".

Zabit Azərbaycan əsgərinin yüksək döyüş ruhunu xalqın və Ali Baş Komandanın ona olan inamından və etimadından aldığını bildirdi: "Məlumdur ki, xalqın və dövlətin varlığının qarantı onun ordusudur. Azərbaycan əsgərinin döyüş ruhunun qidası ona olan etimaddan qaynaqlanır. Xalqımızın, Ali Baş Komandanımızın inamını, diqqətini, qayğısını döyüşlər başlayan andan, başa çatan günə qədər hər an, hər dəqiqə hiss edirdik. Bizi yuxusuz günlərdə, çətin hava şəraitində ayaq üstə saxlayan məhz onların bizə olan sevgisi idi. Kiçikdən-böyüyə hər kəsin qəlbi Azərbaycan əsgəri ilə bir döyünürdü. Döyüşlər başlayan andan biz döyüş meydanında, xalqımız isə döyüş meydanından kənarda xeyirin şər üzərində qələbə qazanması yolunda əlimizdən gələni etdik. Sonda tarixi ədalət bərpa olundu. Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan əsgərinin şəxsində biz bu qələbəni qazandıq. Xalqımız hər zaman öz ordusuna inanıb, ordu isə xalqın ona inamını layiqincə doğrultmağa çalışıb, çalışır və bundan sonra da çalışacaq. Bu gün mən də döyüş yoldaşlarım, xidmət yoldaşlarım da hərbi mundiri daşıdığımız üçün qürur duyuruq. Təbii ki, qalib ordunun hərbi mundirini daşımaq qürurvericidir. Bu hərbi mundir Vətən qoxulu mundirdi. Vətən müharibəsində Azərbaycan əsgərinin göstərdiyi misilsiz şücaət gələcək nəsil üçün vətənpərvərlik nümunəsidir. Fəxr edirəm ki, bu döyüşlərdə iştirak edənlər, qələbə sevincini xalqımıza bəxş edənlər sırasında mən də varam. Vətənimizin işğaldan azad olunması zamanı qarşıma qoyulan tapşırıqları uğurla yerinə yetirdiyimə görə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Sərəncamları ilə "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşam. Xidmətimə bundan sonra da yuxarı komandanlığın ümidlərini doğruldaraq davam edəcəyimə söz verirəm. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!"

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə FETÖ terror təşkilatına qarşı aparılan əməliyyatlar nəticəsində 265 hərbçi saxlanılıb



Türkiyə Silahlı Qüvvələrinin (TSK) FETÖ terror təşkilatı ilə əməkdaşlıqda şübhəli bilinən hərbi qulluqçuların saxlanılması istiqamətində bir neçə genişmiqyaslı əməliyyat keçirilib.

İstanbul Baş Prokurorluğu tərəfindən aparılan əməliyyat zamanı FETÖ ilə əməkdaşlıqda şübhəli bilinən 93 hərbçi saxlanılıb. Onlardan 25-i həbs edilib, üç nəfər barəsində hələ də araşdırmalar aparılır. Saxlanılmasına qərar verilən daha 22 nəfərin axtarışları davam edir. Saxlanılanlardan 22-i terror təşkilatının fəaliyyəti ilə bağlı təhlükəsizlik qüvvələrinə geniş məlumat verib. Daha bir əməliyyat İzmir Baş Prokurorluğu tərəfindən ölkənin 53 vilayətində paralel keçirilib. Martın 23-də başladılan əməliyyatlarda indiyədək 184 hərbçinin saxlanılmasına qərar verilib. Bu şəxslərdən 172-si saxlanılıb ki, onlardan 123-ü hazırda fəaliyyətdə olan hərbçidir. Saxlanılanlardan 41-i həbs edilib, 92-si isə məhkəmə nəzarəti şərti ilə sərbəst buraxılıb. Digər şübhəlilərin axtarışları davam edir.

## Yaponiya özünümüdafiə qüvvələrinin F-35B qırıcı təyyarələrini ilk dəfə olaraq ölkənin cənub-qərbində yerləşdirəcək



Yaponiya özünümüdafiə qüvvələrinin F-35B qırıcı təyyarələrini ilk dəfə olaraq ölkənin cənub-qərbində, Miyazaki prefekturasının Nyutabaru bazasında yerləşdirmək niyyətindədir. Bu barədə bazar günü "Yomiuri" qəzeti hökumətdəki mənbələrə istinadla məlumat yayıb.

Qeyd edilir ki, hazırda məsələ yerli hakimiyyət orqanları ilə razılaşdırılır. Həmçinin bildirilir ki, özünümüdafiə qüvvələri F-35B qırıcılarının uçuşlarına 2024-cü ildə başlamağı nəzərdə tutur. Bildirilir ki, Yaponiya hökuməti bu addımı uzaqda yerləşən adaları müdafiə etmək məqsədilə atır.

Əlavə olaraq qeyd edək ki, ABŞ-ın "Lockheed Martin" şirkəti tərəfindən istehsal edilən F-35B beşinci nəsil çoxfunksiyalı qırıcı-bombardmançı təyyarələri qısa uçuş məsafəli və üfüqi eniş qabiliyyətlidir.

## Nigeriyada silahlıların hücumu nəticəsində 14 nəfər həlak olub



Nigeriyanın qərbində silahlı şəxslərin hərbi bazaya və onun yaxınlığındakı rayonlara hücumu nəticəsində 14 nəfər həlak olub.

Çərşənbə günü 200-ə yaxın silahlı şəxs Niger ştatının Allava rayonundakı bazaya hücum edərək altı əsgəri və bir polisi öldürüb. Bundan sonra onlar hərbi bazanı yandıraraq ətraf rayonlara yollanıblar. Orada daha yeddi nəfəri qətlə yetirib, bir neçəsini isə oğurlayıblar.

## Rafael Qrossi: Nüvə proqramı ilə əlaqədar İranın gizli fəaliyyəti barədə bir söz deyə bilmərəm



Nüvə proqramı ilə əlaqədar İranın gizli fəaliyyəti barədə bir söz deyə bilmərəm.

Bu sözləri Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) baş direktoru Rafael Qrossi Almaniyanın "Zoddeutsche Zeitung" qəzetinə verdiyi müsahibəsində deyib. O bildirib ki, əgər nüvə razılaşması üzrə tərəflər öhdəlikləri yerinə yetirsələr onda AEBA daha dəqiq məlumat əldə edər və İranın nüvə fəaliyyətini tam nəzarətdə saxlayar. R.Qrossi nəzərə çatdırıb ki, bütün çətinliklərə baxmayaraq İranın nüvə proqramına təşkilat tərəfindən nəzarət edilir. Əgər tərəflər razılıq əldə edə bilməsələr, onda yenidən danışıqlara başlamaq lazım gələcək ki, bu da çox çətin bir proses olacaq.

**AZƏRTAC-ın materialları əsasında**

*Tarix yazan oğullar*

# Murov zirvəsində şəhidliyə ucalan xaçmazlı kəşfiyyatçı



***Xaçmaz rayonunun Bayoba kəndindən olan şəhid Vahid Baxşıyev Murovdağ zirvəsi uğrunda şiddətli döyüşlərin iştirakçısı olub. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, 21 yaşlı Vahid Xüsusi Təyinatlı Qüvvələrin giziri kimi Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılıb. Qorxmaz kəşfiyyatçı oktyabrın 30-da yanında mərmi partlaması nəticəsində şəhidlik zirvəsinə ucalıb.***



Anası Mehri Baxşıyeva bildirib ki, Vahidin hərb elminə böyük həvəsi vardı. "Çox gözəl övlad idi. Bir sözümüzü iki etməzdi. Evimizin sonbeşiyi idi. Şeir yazırdı. Müharibə vaxtı hər gün danışırdıq. "Vahid özündən muğayat ol" deyirdim. Məni aldadırdı ki, guya döyüşlərə girmir. Təlimlərdən sonra evə gəlmişdi. Çantası 60-70 kiloqram olardı. Həmin çanta ilə dağlara çıxırdılar. O, mənim başımı ucaltdı. Vətənpərvər idi, müharibədən, erməniləri torpaqlarımızdan birdəfəlik qovmaqdan danışırdı. Şəhid olan günü telefonla danışdıq. Günorta saat birdə zəngləşdik. Atası, qardaşı ilə zarafatlaşıb güldülər. Bir-iki saatdan sonra şəhid olub. Məndən gizlətmişdilər".

Vahid döyüşlərin ilk günlərində Murovdağ zirvəsinin azad olunması əməliyyatlarında fəal iştirak edib. Daha sonra cəbhənin digər istiqamətlərində yaşayış məntəqələrinin işğalına son qoyulması üçün irəli atılan birləşmələrdə döyüşüb.

"Sakit uşaq idi. Məktəbdə oxuyanda vaxtından əvvəl əsgərliyə getmək istəyirdi. Vaxtı çatanda hərbi xidmətə yollandı. Xidmətini başa vurandan sonra da öz istəyi ilə hərbidə qaldı. Xeyirxahlığı ilə də seçilirdi. Maaşından imkansız ailəyə kömək edirmiş. Şəhid olandan sonra bu barədə bildik. Keçən ilin yanvarından Azərbaycan Ordusunun giziri kimi hərbi xidmətə başlamışdı. Döyüşlər vaxtı bizə ətraflı məlumat vermirdi. Yalnız onu deyirdi ki, əmr gözləyirik. Halbuki od-alovun içində döyüşürdü. Son savaşdan qabaq da zəng eləmişdi. "Hər şey yaxşıdır", - dedi. Allah bütün şəhidlərimizə rəhmət eləsin", - deyə şəhidin atası Meclum Baxşıyev söyləyib.

"Vahidin musiqiyə, incəsənətə marağı vardı. Şeirlər yazırdı, rayonda mədəni tədbirlərdə iştirak edirdi. Fəxri fərmanla təltif olunub. Şəhid olması xəbərini noyabrın 1-də eşitdim. İşdə idim. Əmim zəng edərək xəbər verdi. Ürək nahiyəsindən qəlpə yarası alıb. Döyüş yoldaşlarının dediyinə görə yanında mərmi partlaması nəticəsində şəhid olub. Vətən sağ olsun!", - deyə şəhidin qardaşı Mahir Baxşıyev bildirib.

Şəhid Vahid Baxşıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.

# İdman

## RAGB-nin general-mayor Polad Həşimov adına komandası hərbi-idman oyunlarında iştirak edib



Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimovun adını daşıyan komandası hərbi-idman oyunlarında iştirak edib.

Moskvada, "Poyma reki Qorodnya" ("Qorodnya çayının subasar sahəsi") parkı ərazisində "Qardaş xalqların birliyi" II Beynəlmiləl hərbi-idman oyunları keçirilib. Tədbir "Xalqların qardaşlığı" Yeniyetmələrin və gənclərin vətənpərvərlik ruhunda fiziki, intellektual tərbiyəsi və inkişafı mərkəzi tərəfindən təşkil olunub. Turnirdə müxtəlif yarışlar, o cümlədən kəndir labirintləri, təkbətək atıcılıq, güc təmrinləri təşkil edilib.

Qeyd edək ki, "Qardaş xalqların birliyi" hərbi-idman oyunlarının keçirilməsi artıq ənənəyə çevrilib. Oyunların keçirilməsi Rusiyanın çoxmillətli gənclər mühitində qarşılıqlı münasibətlərin yaxşılaşdırılması və möhkəmləndirilməsi, oyunların gedişi zamanı iştirakçılarda komanda ruhunun formalaşdırılması, müxtəlif xalqların gənclərinə hərbi vətənpərvərlik tərbiyəsinin aşılanması məqsədi daşıyır.

## Azərbaycan atleti Boyanka Kostova dördqat Avropa çempionu olub



Moskvada kişilər və qadınlar arasında ağır atletika üzrə Avropa çempionatı davam edir.

40 ölkədən 361 idmançının (179 qadın, 182 kişi) iştirak etdiyi yarışda baş məşqçilər Asif Məmmədov (kişilər) və Sərdar Həsənovun (qadınlar) rəhbərliyi altında Azərbaycan yığma komandasının üzvləri də qüvvələrini sınayırlar. Onlardan ilk olaraq Boyanka Kostova körpücük üzərinə çıxıb. O, 59 kiloqram çəki dərəcəsində mübarizə aparıb.

Atletimiz birdən qaldırma hərəkətində 95 kiloqram nəticə ilə bürünc, təkanla qaldırma hərəkətində isə 116 kiloqram ilə qızıl medal qazanıb.

Toplam 211 (95 + 116) kiloqram nəticə göstərən B.Kostova yekun sıralamada Avropa çempionatının qızıl medalına sahib çıxıb.

## Azərbaycan qılıncoynadanı dünya birinciliyində bürünc medal qazanıb



Aprelin 4-də Misirin paytaxtı Qahirədə keçirilən qılıncoynatma üzrə yeniyetmə və gənclərin dünya birinciliyində ikinci yarış gününə yekun vurulub.

Sablya üzrə milli komandamızın üzvü Zərifə Hüseynova ilk dəfə qatıldığı dünya birinciliyində yeniyetmələr arasında bürünc medal qazanıb.

Qrup mərhələsini 4 qələbə ilə başa vuran idmançımız onaltıdabir finalda Misir təmsilçisi Adel Eldokşin (15:8) ardınca özbəkistanlı sablyaçı Jasmina Abdullayevanı (15:11) məğlub edib. Yarımfinala yüksəlmək uğrunda keçirilən görüşdə Koreya Respublikası qılıncoynadanı Li Yunseo üzərində 15:6 hesablı inamlı qələbə qazanan Z.Hüseynova dünyanın ən güclü 4 yeniyetmə sablyaçı sırasına yüksəlməklə turnirin bürünc medalını təmin edib. Təmsilçimiz finalın bir addımlığında dünya birinciliyinin qalibi ABŞ sablyaçısı Maqda Skarbonkievicze 9:15 hesabı ilə uduzub.

Bu, Azərbaycanın qılıncoynatma tarixində sablya üzrə yeniyetmələrin dünya birinciliyində qazanılan ilk medaldır.

**AZƏRTAC-ın materialları əsasında**

## Vətən müharibəsi qaziləri Türkiyədə protezlə təmin olunurlar

Müxtəlif səbəblərə görə əlil olan insanlara ortez-protez dəstəyi verən Beynəlxalq Həkimlər İttifaqı Qarabağ torpaqlarının erməni işğalçılarından təmizlənməsi zamanı əzalarını itirən Vətən müharibəsi qazilərini Türkiyəyə apararaq onları protezlərlə təmin etməyə başlayıb. Onlar Bakıda üç ölçülü skanerdən istifadə edərək xəstələrin protez ölçülərini götürəndən sonra protez hazırlanması üçün İstanbuldakı mərkəzə göndərib.

Türkiyənin Azərbaycandakı səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, 3D skanerlə aparılan ölçmələr sayəsində xəstələr həmin ölkəyə getmədən protezlər hazırlanıb. Layihə çərçivəsində Türkiyəyə gedən əlillərdən biri təyyarədən enən kimi protezlə təmin olunub. Hava limanında protezlə təmin olunan Qarabağ qazisi oteldə ayağa qalxaraq yeriməyə başlayıb. Əlillərin İstanbulda lazımi fiziki müalicə və reabilitasiya prosesləri həyata keçiriləndən sonra geri qayıdacaqlar.

*Hərbi texnikalar, silahlar*

# KAPLAN-20 tırtıllı döyüş maşını



KAPLAN-20 tırtıllı döyüş maşını ilk dəfə beynəlxalq İDEF-2015 sərgisində nümayiş etdirilib. Zirehli maşın minalardan, reaktiv qumbaralardan və artilleriya mərmilərindən yüksək səviyyədə qorunmaya malikdir. Bundan başqa, döyüş maşını keyfiyyətli müasir elektron sistem, güc bloku, asılqan və tırtılla təchiz edilib. Bu da maşına ən ağır sistemləri (məsələn, 105 mm-lik top) quraşdırmağa imkan verəcək. Yeni nəsildən olan KAPLAN-20 kiçik siluetə malikdir. Onun tırtıllı hərəkət hissəsi maşını torpaq və asfalt yollarda, eləcə də yumşaq, bataqlıq və qayalıq torpaqlarda sürətli hərəkət etdirməyə qadirdir. Avtomat transmissiyalı mühərrikin təmiri və xidməti qabaq bölmədə yerləşən açıq damdan həyata keçirilir. Maşının arxa hissəsində iki ədəd tam zirehli yanacaq çəni yerləşdirilib. Bu da heyət və desantların təhlükəsizliyini daha da artırır. Maşının arxa hissəsində yerləşdirilmiş iki su topu axar su hövzələrindən keçməyə yardımçı olur. Həmçinin bu toplar vasitəsilə maşın suyun üzərində dönə və geriyə doğru hərəkət edə bilir.

KAPLAN-20 zirehli maşının gövdəsi zirehli polad ərintisindən hazırlanıb, hermetikdir, onun damı və lyukları suyun içəri düşməməsi üçün tam möhürlənib. Zirehli maşının qabaq hissəsində güc bloku və sürücü, orta hissəsində isə maşının komandiri və atıcı yerləşdirilib. Zirehli transportyorun 8 qülləli variantında isə 6 desant yerləşdirilə bilər. Maşın lazer şüalanması üzrə xəbərdarlıq sistemi, snayper atəşini aşkaretmə, kütləvi qırğın silahından müdafiə və müasir rabitə avadanlıqları ilə təchiz edilib. Bundan başqa lazer şüasından qorunmaq üçün maşında optik filtirli geniş sahə görünüşünə malik periskop mövcuddur. KAPLAN-20 tırtıllı maşınının bütün variantlarında görmə sistemi də quraşdırılıb. Maşının uzunluğu 6 m, eni 3,15 m, hündürlüyü (qülləsiz) 2,1 metrdir. Maksimal sürəti saatda 65 kilometr təşkil edir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Həmzəyev Sənan İbrahim oğluna məxsus AD № 0048267 nömrəli və əsgər Qədirov Sadiq Rövşən oğluna məxsus AD № 0037074 nömrəli şəxsi vəsiqələr itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd ƏLİYEV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 212
Nüsxə 4050